

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 100 (21.252)

21 may 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 19-da paytaxtın Binəqədi rayonu, "Azadlıq" prospekti 200/36 ünvanda yerləşən çoxmərtəbəli yaşayış binasında yanğın baş verib.

Mayın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hadisə yerində olub.

Dövlətimizin başçısı binaya baxış zamanı hadisənin səbəblərinin araşdırılması və nəticələrinin aradan qaldırılması ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi, hadisə vaxtı zərərçəkənlərə və həlak olanların ailə üzvlərinə yardımların göstərilməsi və digər məsələlərlə əlaqədar Dövlət Komissiyasının üzvlərinə yerindəcə tapşırıqlarını verdi.

Daha sonra baş verən yanğınla əlaqədar yaradılan Dövlət Komissiyasının Azərbaycan Prezidentinin rəhbərliyi ilə ilk iclası keçirilib.

İclasda Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 19 may tarixli Sərəncamı ilə Məhkəmə-Hüquq Şurasında və Hakimlərin Seçki Komitəsində səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi də vardır.

**"Tərəqqi" medalı ilə**

Allahverdiyev Əli Kərim oğlu

## 2015-ci ilin yanvar-aprel ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada cari ilin yanvar-aprel aylarında 622 milyon 901 min 500 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2014-cü ilin yanvar-aprel ayları ilə müqayisədə 5,2 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2014-cü ilin yanvar-aprel ayları ilə müqayisədə 5,6 faiz artaraq 1414,4 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 296 milyon 656 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 3,6 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar-aprel ayları ərzində əsas kapitala 313 milyon 378 min manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,8 faiz çoxdur. Əsas kapitala



yönəldilmiş investisiyaların 270 milyon 245 min manatı və ya 86,2 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2015-ci ilin yanvar-aprel aylarında informasiya və rabitə xidmətlərinin həcmi 15 milyon 595 min manat olmuşdur ki, bu da 2014-cü ilin yanvar-aprel ayları ilə müqayisədə 2,1 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 12 milyon 953 min manat olmaqla bir il öncəki göstəricini 0,9 faiz üstələmişdir.

* * *



Cari ilin yanvar-aprel ayları ərzində 33 milyon 609 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 5,9 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada 7,2 min ton ət (diri çəkidə), 24 min ton süd istehsal edilmiş, 2014-cü ilin yanvar-aprel ayları ilə müqayisədə ət istehsalı 6,5 faiz, süd istehsalı 1,3 faiz artmışdır.

* * *

Əhali gəlirləri üzrə müsbət dinamika davam etməkdədir. Qeyd olunan dövrdə muxtar respublikada əhalinin gəlirləri 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz artaraq 466 milyon 985 min manat, onun hər bir nəfərə düşən həcmi isə 3,2 faiz yüksələrək 1060,4 manat təşkil etmişdir.

* * *

2015-ci ilin yanvar-aprel aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 392,2 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,7 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 may 2015-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 42570-ə çatmışdır ki, bunun da 38792-si və ya 91,1 faizi aktiv hesablardır. 2015-ci ilin yanvar-aprel aylarında açılmış 4316 bank hesabı aktiv hesablar olmuşdur.

Cari ilin yanvar-aprel aylarında muxtar respublikada 98 POS-terminal quraşdırılmış və bu göstərici 1 may 2015-ci il tarixə 965-ə çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi və dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə şərait yaratmışdır. Cari ilin yanvar-aprel aylarında muxtar respublikada 105 milyon 821 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır.



İxracın həcmi son bir il ərzində 1,4 faiz artaraq 94 milyon 780 min Amerika Birləşmiş Ştatları dollarını ötmüş, idxalın həcmi isə 69 faiz azalaraq 11 milyon 40 min Amerika Birləşmiş Ştatları dolları həcmində olmuşdur. Xarici ticarət üzrə 83 milyon 740 min Amerika Birləşmiş Ştatları dolları həcmində müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2015-ci ilin yanvar-aprel aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 32 milyon 224 min manata yaxın kreditlər verilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstərici ilə müqayisədə 1,8 dəfə çoxdur.

* * *

2015-ci ilin yanvar-aprel aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 1760,8 min manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 136,3 min manat və ya 8,4 faiz çoxdur.

* * *



Bu ilin yanvar-aprel aylarında muxtar respublikaya 118 min 625 nəfər turist gəlmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz və ya 4780 nəfər çoxdur.

* * *

1 aprel 2015-ci il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə



4415 nəfər və ya 1 faiz artaraq 440684 nəfər təşkil etmişdir.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

## "Bələdiyyə orqanlarında qanunçuluğa əməl olunması və qarşıda duran vəzifələr" mövzusunda müşavirə keçirilib

*Dünən Naxçıvan Şəhər İcra Hakimiyyətində "Bələdiyyə orqanlarında qanunçuluğa əməl olunması və qarşıda duran vəzifələr" mövzusunda müşavirə keçirilib.*

Müşavirəni giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Sərdar Salahov açaraq Naxçıvan şəhərində bələdiyyələrin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində görülən işlərdən danışıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev məruzə ilə çıxış edərək bildirib ki, nazirlik tərəfindən muxtar respublikada bələdiyyələrə metodik köməkliklərin göstərilməsi istiqamətində işlər mütəmadi davam etdirilir. Ötən müddətdə Naxçıvan şəhəri üzrə fəaliyyət göstərən bələdiyyələrdə qanunvericiliyin təmin olunması və kargüzarlığın müvafiq aktların tələblərinə uyğun aparılmasının öyrənilməsi məqsədilə yoxlamalar keçirilib, aşkar olunan nöqsanların aradan qaldırılması üçün bələdiyyələrə hərtərəfli metodik köməkliklər göstərilib. Lakin nazirlik tərəfindən görülən işlərə, keçirilən maarifləndirici tədbirlərə, eləcə də verilmiş tövsiyə və təkliflərə baxmayaraq, Naxçıvan şəhəri üzrə bələdiyyələrin fəaliyyətində hələ də nöqsanlar və çatışmazlıqlar qalmaqdadır. Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi, onlara metodoloji yardımın göstərilməsi, bələdiyyə üzvü və qulluqçularının peşəkarlığının artırılması və digər məsələlər daim diqqətdə saxlanılır, bələdiyyələrin maarifləndirilməsi məqsədilə onlara müxtəlif hüquqi



və metodik köməklik göstərilir. Eyni zamanda bələdiyyə üzvləri və qulluqçuları Ədliyyə Akademiyasında tədris tədbirlərinə cəlb olunur, onların hazırlanması və ixtisaslarının artırılması həyata keçirilir. Təkcə bu il ərzində 20 bələdiyyə sədri Ədliyyə Akademiyasına göndərilib ki, bunlardan 3-ü Naxçıvan şəhəri üzrə bələdiyyə sədrləridir. Bu proses gələcəkdə də davam etdiriləcək.

Ədliyyə naziri deyib ki, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri tərəfindən mövcud qanunlara və başqa normativ-hüquqi aktların tələblərinə riayət edilməsinə, bələdiyyə tərəfindən qanunvericiliyin pozulması hallarının aradan qaldırılmasına xidmət edir.

Muxtar respublikada aparılan hərtərəfli abadlıq və quruculuq işləri çərçivəsində bələdiyyələrin də müasir iş şəraiti ilə təmin olunduğunu bildirən Ədliyyə naziri qeyd edib ki, ötən il bələdiyyələrin sırasından işində fərqlənən, seçilən 8 nəfər bələdiyyə sədri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunub. Göründüyü kimi, muxtar respublika rəhbəri bütün sahələr kimi, bələdiyyə sahəsinin də inkişafını diqqətdə saxlayır.

Sonra məruzə ətrafında müzakirələr aparılıb, bələdiyyə orqanlarında qanunçuluğa əməl olunması ilə bağlı qarşıda duran vəzifələrdən danışılıb.

**Xəbərlər şöbəsi**



# İqtisadiyyat

*Mədəni tələbatları sürətlə dəyişən, buna görə hər gün daha yeni məhsul və xidmətlərə ehtiyacı yaranan insan həyatını, onun keyfiyyət göstəricilərini dəyişən sənayenin inkişafı da tarixən aktual məsələ olmuşdur. Çünki sənaye insanın elmi biliklərinin, praktik vərdişlərinin və həyat səviyyəsinin artma meyli ilə paralel olaraq, məhdud təbii ehtiyatlar problemini həll edən, demək olar ki, tək sahədir. Onun inkişaf etdirilməsi insanın təməl həyati tələbatlarından tutmuş ən yüksək mədəni tələbatların ödənilməsinədək hər sahədə özünü hiss etdirir.*

### Blokada və intibah

## Muxtar respublika sənayesi yeni inkişaf mərhələsində

İqtisadiyyatın şaxələndirilməsi, əməyin, xüsusən beyin məhsulunun əsl dəyərinin reallaşaraq öz sahibinə gəlir gətirməsi, elm tutumlu sahələrin inkişaf etdirilməsi, xammala qənaətlə daha rasional istehsala nail olunması, kənd təsərrüfatı, hasilat kimi nisbətən çox əl əməyi tələb edən sahələrin daha çox mexanikləşdirilməsi və avtomatlaşdırılması, enerji təminatında tam təhlükəsizliyə nail olunması məhz sənayenin inkişafından keçir. Yaradıcı insanı daim düşündürən sənaye orta əsrlərin ilk mədəni intibah dövründən müasir informasiya erasındakı robotlu sənayeyədək mühüm bir təkamül yolu keçmişdir.

Azərbaycanın sənayeləşmədə zəngin tarixi təcrübəsi vardır. Hələ XIX əsrin sonları və XX əsrin əvvəllərindən başlayaraq ölkəmizin təbii sərvətlərinin sənaye üsulu ilə emal olunması ona böyük şöhrət qazandırmışdı. Birinci Dünya müharibəsi ərəfəsində Bakı şəhəri adambaşına düşən sənaye məhsulu istehsalına görə bütün Rusiya imperiyasında birinci yerdə duraraq, o dövrdə hətta Moskva və Sankt-Peterburqdan da irəlidə olmuşdu. İkinci Dünya müharibəsi illərində də Azərbaycan sənayesinin nə qədər həyati əhəmiyyət daşıdığı ən mötəbər tarixi sənədlərdə öz təsdiqini tapmışdır. Lakin Azərbaycan Respublikasında sənayenin iqtisadiyyatın aparıcı sahəsi kimi hərtərəfli şəkildə formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 70-ci illərindən başlayaraq ölkəmizin hər yerində, o cümlədən öz təbii ehtiyatları ilə müqayisədə sənayeləşmədə çox geridə qalmış Naxçıvan Muxtar Respublikasında genişmiqyaslı işlər görülməyə başlanmışdır. Çox qısa bir müddətdə o dövrün son texnologiyasının tətbiqi ilə Naxçıvanın yerli təbii ehtiyatlarından istifadə əsasında çox sayda hasilat, emal sənayesi sahələri yaradılmışdır. Naxçıvan Muxtar Respublikasında o dövrdə yaradılmış bir çox iri yüngül və yeyinti sənaye müəssisələri minlərlə gəncin, xüsusən qadınların işlə təminindən əlavə, əhali məskunlaşmasında əla perspektiv yaradırdı. Beləliklə, iqtisadi cəhətdən müstəqil olmaq üçün hər bir dövlətin özünün inkişaf etmiş sənayesinin əsas şərt olduğunu yaxşı bilən böyük dövlət xadimi Heydər Əliyev bu yolla hələ o dövrdə Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm özüllər yaradırdı.



1988-ci ildən başlayan və sovet imperiyasının dağılması ilə nəticələnən proseslər ilk olaraq sənaye sahəsinə öz mənfi təsirlərini göstərmişdir. Mərkəzi hakimiyyətin maraqları əsasında qurulmuş iqtisadi sistemdə təsərrüfat əlaqələrinin pozulması ilə ilk olaraq sənaye böhrana sürükləndi. Yəqin ki, orta və yaşlı nəslin nümayəndələri ötən əsrin 90-cı illərinin əvvəllərində şəkər tozu, kibrit, elektrik lampası kimi çox bəsit sənaye məhsullarının bir anda yoxa çıxaraq bazar qiymətindən az qala neçə yüz dəfə baha satılmasını yaxşı xatırlayırlar. Sənayedə illər boyunca qaydaya salınmış təsərrüfat əlaqələrinin qısa bir müddətdə dağılaraq necə mənfi fəsadlar törədə biləcəyini bunun kimi bir çox misallarla göstərmək mümkündür.

1988-1993-cü illər arası baş verən məlum hadisələr Azərbaycanda sənayenin inkişafına ciddi ziyan vurmuşdur. Bu dövrdə ozamankı sovet rəhbərliyinin Azərbaycana qarşı zidd siyasəti, Ermənistanın işğalçılıq hərəkətləri, bütövlükdə, respublikanın və blokada vəziyyətinə salınmış Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına, onun sənayesinin inkişafına mənfi təsir göstərirdi. 1990-1993-cü illərdə xalqımızın xilaskarı Heydər Əliyevin Naxçıvandakı gərgin fəaliyyəti təkcə onun iqtisadiyyatının deyil, bir muxtariyyət kimi özünün də məhv olmasının qarşısını almışdır. Dahi şəxsiyyətin səyləri ilə 1991-1992-ci illərdə qonşu Türkiyə və İranla yaradılmış əlaqələr, kommunikasiya əlaqələrinin yeni alternativ yollarla bərpası, Naxçıvanda aparılmış ciddi islahatlar gələcəkdə Naxçıvan iqtisadiyyatının hərtərəfli inkişafını şərtləndirəcək mühüm tədbirlərdən olmuşdur. Ağır blokada şəraitində yaşayan Naxçıvanda 1996-cı ildən başlayan quruculuq və inkişaf xətti sonrakı illərdə özünü bütün ölkədə nümunə kimi göstərilən ilklərlə doğruldaraq bir idarəetmə modeli kimi tarixə düşmüşdür.

Bu yeni intibah dövrünə Naxçıvanda sənayenin inkişafı üçün atılan qəti addımlar dövrü deyə bilərik. Regionun iqtisadi təhlükəsizliyinin təmin olunması nəticəsində artıq 2003-cü ildə 1993-cü ildəkinə nisbətən 3,4 dəfə çox sənaye məhsulu istehsal olunurdu. Bu dövrdə muxtar respublikanın aqrar regiondan aqrar-sənaye regionuna çevrilməsi üçün etibarlı zəmin yaradılmış, region iqtisadiyyatının bütün sahələrini əhatə edən yüksəliş əldə edilmişdir. Belə ki, 1993-cü ilə nisbətən 2003-cü ildə Naxçıvan Muxtar Respublikasının ümumi daxili məhsulunun həcmi 6,8 dəfə, əhali gəlirləri isə 10,5 dəfə artmışdı.

2004-cü ildən ölkəmizdə həyata keçirilən regional inkişaf proqramlarının Naxçıvan Muxtar Respublikasında da uğurlu icrası iqtisadiyyatın bütün sahələri ilə yanaşı, sənayenin də güclü inkişafına gətirib çıxardı. Artıq Naxçıvanda əvvəlki göstəricilərdən onlarla dəfə çox sənaye məhsulları istehsal olunmağa, yeni iş yerləri yaradılmağa, sosial və mədəni sahədə ciddi uğurlar qazanılmağa başlanmışdır. Naxçıvan qısa müddət ərzində işçi göndərən regiondan əcnəbi işçi qəbul edən regiona çevrilmişdir.



Naxçıvan Muxtar Respublikasında 2003-cü ildən başlayaraq davam edən növbəti intibah mərhələsi həyatın bütün sahələrində olduğu kimi, sənayedə də aydın görünməkdədir. Bu daha çox özünü elm və əmək tutumlu, innovativ yüklü sənaye sahələrinin yaradılması istiqamətində göstərir. Ölkəmizdə iqtisadiyyatın çoxşaxəliliyinin təmin olunması və neftdən asılılığın aradan qaldırılması istiqamətində müəyyən olunmuş strategiyaya uyğun olaraq, Naxçıvan Muxtar Respublikasında həm yerli xammala əsaslanan, həm də yüksək texnologiya bazalı sənaye müəssisələrinin yaradılması işi uğurla davam etdirilir. Belə ki, 2003-cü illə müqayisədə 2014-cü ildə Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun həcmi 51 dəfə artmış, 313 milyon 481 min Amerika Birləşmiş Ştatları dolları dəyərində sənaye məhsulu ixrac olunmuşdur.

Hazırda Naxçıvan Muxtar Respublikası sənayesinin müqayisəli göstəriciləri çox qabarıqdır. Əgər 1989-cu ildə muxtar respublikada 40 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, 2014-cü ilin sonuna bu müəssisələrin sayı, təqribən, 11 dəfə artaraq 439-a çatmışdır. İndi həmin müəssisələrdə 330 növdən çox sənaye məhsulları istehsal olunur. Ötən əsrin 90-cı illərinin əvvəllərində adi sənaye məhsullarına olan tələbatını ödəyə bilməyən Naxçıvan avtomobil, sement istehsalına qədər uğurlu inkişaf yolu keçmişdir. 2014-cü ildə muxtar respublikada istehsal olunmuş 2 milyard 391 milyon manatlıq ümumi daxili məhsulda sənaye 891 milyon 486 min manat həcmlə ilk yeri tutmuşdur. Ötən ildən Naxçıvan Muxtar Respublikasında sənaye parklarının yaradılmasına başlanılması gələcəkdə bu mühüm sahənin daha da genişləndirilməsinə imkan verəcəkdir.

***Muxtar respublikanın təbii ehtiyatları, işgüzar fəaliyyətin dəstəklənməsi və tranzit imkanları burada daha geniş istehsalyönümlü layihələrin həyata keçirilməsi imkanları yaradır. Qarşıya qoyulmuş məqsəd isə muxtar respublikanın sahib olduğu potensialdan tam və rasional istifadə olunmasına imkan verən sənaye komplekslərinin yaradılması, ixtisaslaşmanın mənimsənilməsi ilə ölkəmizi brend məhsullarla tanıda biləcək ixracyönümlü sənaye məhsulları istehsalına nail olmaqdır.***

Əli CABBAROV

### İstehsal müəssisələri

## “Dekor Qrup” Məhdud Məsuliyyətli Cəmiyyətində yeni istehsal sahəsi yaradılıb

*Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı təmin olunur, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsinə dövlət maliyyə dəstəyi göstərilir, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılır, yeni istehsal və xidmət sahələri, idxalıəvəzləyici və ixracyönümlü məhsullar istehsal edən emal və sənaye müəssisələri yaradılır. Aparılan uğurlu islahatlar nəticəsində muxtar respublikada istehsal olunan sənaye məhsulunun 93 faizdən çoxu bu gün artıq özəl sektorun payına düşüb.*

Son illər yaradılan müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən “Dekor Qrup” Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisənin direktoru Ələddin Allahverdiyev bildirdi ki, özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnib. Xammal və hazır məhsulların ağırtonnajlı yük avtomobilləri ilə daşınması üçün daha əlverişli yerdə – Naxçıvan dairəvi avtomobil yolunun kənarında müəssisə üçün 15 min kvadratmetr torpaq sahəsi ayrılıb. 2013-cü ilin may ayından inşaat işlərinə başlanılıb, əraziyə elektrik, qaz, su və kanalizasiya xətləri çəkilib.



İnşaat işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün müəssisəyə təcrübəli mütəxəssislər cəlb olunub, 3 istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, ayrı-ayrı iş otaqları və sərgi-satış salonu olan inzibati bina, iaşə xidməti göstərilməsi üçün yeməkxana istifadəyə verilib.

Layihəyə uyğun olaraq, laminat-mətbəx dəzgahı, PVC akrilik parlaq panellər və melamin örtüklü plitələr istehsal olunması nəzərdə tutulan müəssisədə ötən il laminat-mətbəx dəzgahı və PVC akrilik parlaq panellər istehsalı sahəsi yaradılıb. Burada İtaliyanın “Omma” və “Osoma”, Almaniyanın “İdm”, Türkiyənin “AS Metal” və “Türk makina” şirkətlərinin istehsalı olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilən müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesi avtomatlaşdırılıb. Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə istehsal prosesi konveyer üsulu ilə təşkil olunub. Həmçinin müəssisədə havalandırma sistemi qurulub, istehsal prosesi zamanı yaranan tozun və tullantıların kompressorlar vasitəsilə sexdən kənarlaşdırılması və xüsusi bunkerlərə yığılması təmin edilib.

Hər birinin istehsal gücü gündə 10 min ədəd mebel materialları olan yeni istehsal sahələrində xammal ayrı-ayrı mərhələlərdən keçməklə rəng olaraq 100 çeşiddən çox məhsul istehsal edilir. Əvvəllər muxtar respublikamızda fəaliyyət göstərən mebel istehsalı müəssisələrinə hazır materiallar xarici ölkələrdən idxal olunub əlavə daşınma xərci çəkilirdisə, bu müəssisənin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılıb, istehsal müəssisələri vaxtında və keyfiyyətli mebel materialları ilə təmin olunub.

Yeni istehsal müəssisəsinin fəaliyyətə başlaması daxili bazarı keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb. Hazırda müəssisədə 60 nəfər çalışır. Onu da qeyd edək ki, müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılır, müəssisədə çalışan işçilərin Türkiyə Respublikasında ixtisasartırma kurslarında iştirakı təmin olunur. Bu da imkan verir ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

Cari ildə müəssisədə yeni istehsal sahəsi – ağac lifli yonqar lövhələrin boyanması istehsalı sahəsi yaradılıb. İstehsal gücü 8 saatlıq iş rejimində 2000 ədəd lövhə boyamaq olan yeni istehsal sahəsində mebel avadanlıqları istehsalında dünyada məşhur olan İspaniyanın “Barberan” şirkətinin avadanlıqları alınıb gətirilib və idxal olunan dəzgahlar həmin şirkətin Türkiyə təmsilçiliyinin mütəxəssisləri tərəfindən quraşdırılıb. Həmçinin bu istehsal sahəsində çalışan yerli mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılıb, işçilərin ixtisasartırma kurslarında iştirakı təmin olunub. Hazırda ağac lifli yonqar lövhələrin boyanması istehsalı sahəsində sınaq-yoxlama işləri aparılır. 70 metr uzunluğunda olan konveyer xəttində kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş müasir texnoloji avadanlıqlar quraşdırılıb. Verilən sifarişə uyğun olaraq, xammal ayrı-ayrı mərhələlərdən keçməklə hazırlanır. Yeni istehsal sahəsi istifadəyə veriləndən və müəssisə tam gücü ilə işləyəndən sonra, ümumilikdə, 110 nəfər daimi işlə təmin ediləcək.

Mebel materialları istehsal edilən bu müəssisə muxtar respublikamızda yeganə müəssisədir. Yeni müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, ölkəmizin digər regionlarında da satışa çıxarılır, həmin məhsulların gələcəkdə xarici ölkələrə ixrac olunması nəzərdə tutulur. İstehsal olunan məhsulların ayrı-ayrı topdansatış bazalarına vaxtında çatdırılması üçün “Mersedes” markalı ağırtonnajlı yük avtomobilləri alınıb.

Kərəm HƏSƏNOV

# Oxucu məktubları

Razılıq

## Duzdağda müalicə olunub sağlamlığıma qovuşdum



**Hörmətli redaksiya!**

***Mən Bakı şəhərinin Yasamal rayon sakiniyəm. Məktubu yazmaqda məqsədim Naxçıvanda olduğum müddətdə aldığım təəssüratları oxucularla bölüşməkdir.***

Bir neçə il əvvəl nəfəs almaqda çətinlik çəkdiyimdən həkimlər mənə Naxçıvana gedib müalicə almağı tövsiyə etdilər. Duzdağ haqqında əvvəllər eşitsəm də, yolun uzaq olması və bir az da nabələdlik səbəbindən bir il gələ bilməyib gözlədim. Ancaq üç il əvvəl ilk dəfə Duzdağ Fizioterapiya Mərkəzində olarkən məndə yaranan xoş təəssüratı indi də unuda bilmirəm. Təbiətin möcüzəsi insan əlinin qüdrəti ilə birləşdikdə nələr yaradıla bilərmiş, burada gördüm. Artıq üçüncü dəfədir ki, mərkəzdə olduğum müddətdə aldığım müalicə, həkim və tibb işçilərinin insanlara diqqəti, Naxçıvan şəhərində gördüyüm qonaqpərvərlik məndə yüksək təəssürat yaradıb, sağlamlığıma yenidən qovuşmağa mənə çox kömək eləyib. Bu yay mövsümü də məzuniyyətimi Naxçıvanda keçirməyi, Duzdağda müalicəmi davam etdirməyi planlaşdırıram. Qəzetiniz vasitəsilə ailəmiz adından Duzdağda yaradılan nümunəvi şəraitə görə öz səmimi minnətdarlığımı bildirmək istəyirəm.

***Hörmətlə, Əfruzə QASIMOVA***
***Bakı şəhər sakini***

Minnətdarlıq

## Kəndimiz müasir yaşayış məntəqəsinə çevrilib



***Hörmətli redaksiya!*** Yaşadığım Şahbuz rayonunun Gömür kəndi muxtar respublikanın ucqar sərhəd və dağ yaşayış məntəqələrindən biridir. Sovet dönəmində Gömür digər belə ünvanlarda yerləşən kəndlər kimi gözdənuzaq düşmüşdü. 1995-ci ildən sonra hərtərəfli qayğı ilə əhatə olunan kənddə ilk quruculuq tədbirlərinə öz ata-baba yurdlarından didərgin düşərək buraya pənah gətirən soydaşlarımıza yeni mənzillər tikilməsi ilə başlanıldı. Digər məqsədyönlü tədbirlər həyata keçirildi. Bunların davamı kimi bu il aprel ayının 22-də kənddə daha bir neçə obyekt istifadəyə verilib. Onlardan biri 2 mərtəbədən ibarət olan kənd mərkəzidir. Burada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, kitabxana, feldşer-mama, baytarlıq və polis sahə məntəqələri, mədəniyyət evi yerləşdirilib. Kənd mərkəzində yaradılan müasir iş şəraiti sakinlərin sosial problemlərinin vaxtında həllinə imkan verib.

Həmin gün gömürlülərin sevincinə sevinc qatan daha bir obyekt isə 2 mərtəbədən ibarət olan məktəb binasıdır. Burada 2-si elektron lövhəli olmaqla, 11 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, kompüter, şahmat otağı, kitabxana, hərbi kabinə, idman zalı və açıq idman qurğuları istifadəmizə verilib.

Gömürlülərə göstərilən daha bir qayğı burada istifadəyə verilən xidmət mərkəzidir. Mərkəzdə bərbərxananın, qadın gözəllik salonunun, ət satışı yerinin, ərzaq və təsərrüfat malları mağazalarının fəaliyyətindən istifadə üçün hərtərəfli şərait yaradılıb. Bununla da, kənd sakinlərinin zəruri ehtiyaclarını ödəmələri məqsədilə rayon və şəhər mərkəzinə üz tutmaları problemi aradan qaldırılıb.

Kənddə geniş abadlıq işləri aparılıb, kənddaxili yola asfalt örtük salınıb, yolboyu beton kanal çəkilib, bir neçə su keçidi qoyulub, Ağbulaq kəndindən Gömür kəndinədək və eləcə də kənd daxilində fiber-optik kabel, rabitə, elektrik, qaz və içməli su xətləri çəkilib.

Bizə göstərilən belə qayğı üçün kənd sakinləri adından dövlətimizə minnətdarlığımı bildirirəm.

**Zahid ASLANOV**
***Gömür kənd tam orta məktəbinin müəllimi***

Təəssürat

## Buna ən çox sevinən uşaqlar idi...

***Salam, hörmətli redaksiya! Bu məktubu sizə Naxçıvan şəhərindən yazıram. Daimi oxucunuz olduğumdan qəzetinizdə “Oxucu məktubları” rubrikasında yayımlanan məktubları çox maraqla oxuyuram.***



Muxtar respublika sakini kimi qəzetiniz vasitəsilə bura gələn qonaqlardan bu qədim diyar haqqında xoş sözlər oxuyuruq. Belə bir məşhur ifadə var: “Aşıq gördüyün çağırar”. Doğrudan da, bu gün Naxçıvanın gözəlliyini görməmək, bu gözəlliklərdən ləzzət almamaq mümkün deyil. Yaşadığımız Naxçıvan şəhəri son dövrlər gözəlliyi ilə yanaşı, həm də bura gələn əcnəbi qonaqların sayının artması ilə də diqqəti cəlb edir. Bu isə onu göstərir ki, şəhərimizə maraq gündən-günə daha da artır. Ancaq mənim demək istədiklərim, sadəcə, bu gözəlliklər yox, həm də gözəlliklər içərisində şəhər sakinlərinə, xüsusilə uşaqlarımıza yaradılmış şərait haqqındadır.

Yaxşı yadımızdadır, 15-20 il bundan əvvəl uşaqlarımızı şəhərdə gəzdirmək üçün indiki qədər gözəl ünvanlar, əyləncə mərkəzləri yox idi. Gücümüz o qədər də ürəkaçan olmayan şəhər parklarına çatırdı. Ancaq indi vəziyyət tamam dəyişilib. Uşaq və yeniyetmələrin, o cümlədən gənclərin üz tuta biləcəyi çox gözəl obyektlərimiz var. Bu günlərdə peşəkar sirk ustalarının şəhərimizə təşrif buyurması və maraqlı proqramlarla çıxış etməsi isə təkcə uşaqlar deyil, böyüklər üçün də maraqlı oldu. Mən də fürsətdən istifadə edib balaca nəvəmlə bu əyləncədə iştirak etdim. Onu da deyim ki, Naxçıvanda sirk oyunlarının axırıncı dəfə nə zaman nümayiş etdirildiyini xatırlaya bilmirəm. Uşaqlarımız hər dəfə bu cür əyləncə proqramlarına yalnız televiziya vasitəsilə baxmalı olurdular. Ancaq sirkdəki oyunçularla canlı təmasda olmaq, onları yaxından görmək, düşünürəm ki, hər kəs üçün maraqlıdır. Biz də bir-birindən maraqlı nömrələri böyük sevinc və həyəcanla izlədik. Sirk çadırının tamaşaçılarla dolu olması bu əyləncəyə nə qədər böyük maraq olduğundan xəbər verirdi. Əlbəttə ki, buna ən çox sevinənlər uşaqlar idilər. Balaca Aygünün proqramdan sonra da mənə ünvanladığı suallar, sirk haqqında hər şeyi öyrənmək istəyi balacaların bu əyləncəyə nə qədər maraqlı olduqlarını göstərir. Bu cür tədbirlər gələcəyimiz olan uşaqların əyləncəsi ilə yanaşı, onların dünyagörüşlərinin artmasına, günümüzün yenilikləri haqqında məlumatlar toplamalarına da öz müsbət təsirini göstərir. Mən isə uşaqlarımızın yaddaşında xoş izlər buraxmış bu proqramın təşkilatçılarına minnətdarlığımı bildirmək üçün bu məktubu sizə yazdım.

**Ləzifə QULİYEVA**
***Naxçıvan şəhər sakini***

## Naxçıvanın müasir səhiyyə müəssisələrində indi ən çətin cərrahi əməliyyatlar da uğurla aparılır

**Hörmətli redaksiya!**

***Bu minnətdarlıq məktubunu təkcə öz adımdan yox, 5-6 aprel 2015-ci il tarixlərində Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində uğurlu açıq ürək əməliyyatı aparılması sayəsində yenidən öz sağlamlığına qovuşmuş on nəfər muxtar respublika sakininin adından yazıram.***



Dərin minnətdarlıq duyğusu ilə bildirmək istəyirik ki, müstəqil Azərbaycanda, onun ayrılmaz hissəsi olan ulu Naxçıvanda bütün digər sahələrlə yanaşı, səhiyyənin ən müasir standartlar səviyyəsində inkişafı, insanların sağlamlığının hərtərəfli şəkildə qorunması da daim diqqət mərkəzindədir. Diyarımızın səhiyyə ocaqları tamamilə yenidən qurulmuş, ən müasir tibbi avadanlıq, cihaz və aparatlarla, yüksəkixtisaslı mütəxəssislərlə təmin olunmuşdur. Bir vaxtlar hətta adi müayinə və müalicə imkanlarının məhdud olduğu Naxçıvanın səhiyyə müəssisələrində indi ən çətin cərrahiyyə əməliyyatlarının uğurla aparılması adi hala çevrilmişdir.

Biz bütün bunların şahidi olduq. Bakıdakı Mərkəzi Neftçilər Xəstəxanasından dəvət olunmuş ürək-damar cərrahiyyəsi üzrə tanınmış mütəxəssislər – tibb üzrə fəlsəfə doktoru Seymur Musayevin, eləcə də Nurlan Mahmudov və Kənan Əsədovun, həmçinin Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin ürək-damar cərrahı İntiqam Fətullayevin, həkimlərdən Xətayi Əliyevin, Şahin Mazanovun və digər tibbi personalın birgə zəhməti ilə keçirilən açıq ürək əməliyyatı nəticəsində biz, sözün əsl mənasında, yenidən həyata qayıtdıq. Əməliyyatdan sonrakı dövrdə də bizə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində mükəmməl tibbi xidmət göstərildi.

Artıq sağlamlığımız bərpa olunub, ağrı-acılarımız arxada qalıb, səhhətimiz tam normaldır. Dünyanın ən böyük neməti olan cansağlığına təkrar qovuşduğumuz üçün göstərilən böyük qayğıya, yaradılan şəraitə görə dərin minnətdarlığımızı bildiririk!

**Tofiq ƏLİYEV**
***Naxçıvan şəhər sakini***

## Məhdud fiziki imkanlı şəxslərə böyük diqqət və qayğı göstərildiyinin bir daha şahidi oldum

**Hörmətli redaksiya!**

***Sizə bu məktubu Şərur rayonunun Oğlanqala kəndindən yazıram. Mən ötən ayın əvvəllərində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 8 nəfər sağlamlıq imkanları məhdud insanla Türkiyə Respublikasının Dənizli şəhərində fəaliyyət göstərən Nobel Tibb Mərkəzinə 20 günlük fizioterapevtik müalicə üçün göndərilmişdim.***

Biz Naxçıvandan Bakıya, oradan da Türkiyənin mülayim iqlimə, təmiz havaya sahib Dənizli şəhərinə yola düşdük. Əzələ və skelet sistemi xəstəliklərindən neyroloji xəstəliklərə, daxili xəstəliklərdən dəri xəstəliklərinə qədər bir sıra xəstəliklərin müalicə olunduğu bu mərkəz haqda əvvəlcədən məlumatım yox idi və adıçəkilən səhiyyə ocağı ilə tanış olarkən dövlətimizin biz məhdud fiziki imkanlı şəxslərə nə qədər diqqət və böyük önəm verdiyini bir daha dərindən anladım.

Xəstəliyimlə əlaqədar olaraq bildirim ki, son illər ayaqlarımda taqətsizlik yaranıb. Ayağa qalxa bilmirəm, əlil arabasına möhtacam. Tibbi innovasiyaların geniş tətbiq olunduğu Nobel Tibb Mərkəzinə göndərilməyim çox yerinə düşdü. Nəinki Türkiyənin, hətta dünyanın ən tanınmış tibb mərkəzlərindən olan bu müalicə ocağında mən və yoldaşlarım tərkibində bikarbonat, sulfat, maqnezium, sodium, kalsium, karbondioksid, dəmir maddələri olan, yerdən 58 dərəcə istiliklə çıxan qırmızı rəngli termal su və palçıq vannaları qəbul edərək müalicə aldıq. Bundan başqa, yerdən 36 dərəcə istiliklə çıxan ağ rəngli termal sulardan istifadə etməklə müalicə kursu keçdik, oradakı həkimlərdən faydalı məsləhətlər aldıq. Masajlar, elektroterapiyalar, lazerterapiyalar ağrılarımın aradan qaldırılmasına yardım etdi. Su hovuzlarında, salonlarda keçirilən fiziki müalicə kurslarına qatılmağım ağrılara səbəb olan amillərin aradan qaldırılmasında mənə çox kömək oldu. Hiss etdim ki, əzələlərim öz gücünü yenidən qazanır, dayaq-hərəkət sistemi bərpa olunur – sağalıram! Oradakı həkimlər tərəfindən müxtəlif fiziki metodlar vasitəsi ilə orqanizmimin funksional imkanları yaxşılaşdırıldı, müalicə-reabilitasiya, sağlamlaşdırıcı və bərpaedici müalicə kursları nəticəsində səhhətimdə böyük dəyişikliklər baş verdi. Müalicə kursu müddətində mən və yoldaşlarım çox sayda təbiət, mədəniyyət və ətraf mühitin tanıdılması ilə bağlı bir sıra tədbirlərə də qatıldıq. Bu da bizdə effektli müalicə üçün vacib olan yüksək əhval-ruhiyyə, xoş ovqat yaratdı.

Bundan əvvəl iki dəfə Ukraynada müalicəyə göndərilmişəm. Bu müalicə kurslarına göndərilməyimin mənə ən böyük faydası sağalıb əvvəlki kimi ayağa qalxacağıma, yeriyəcəyimə dair ürəyimdə ümid işığının yanması, daha doğrusu, dövlətimiz tərəfindən yandırılması oldu. Xarici ölkədə müalicə almaq üçün göndəriləcəyimi eşidəndə çox sevindim və bu xəstəlikdən qurtulacağıma inandım. İnam isə bir insan üçün hər şeydir. Məndə bu inamı yaratdığına görə dövlətimizə minnətdaram.

**Zəminə SÜLEYMANOVA**
***Şərur rayonunun Oğlanqala kənd sakini***

## Müharibə veteranının 95 yaşı qeyd olunub



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 12 mart 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı"na uyğun olaraq, 1941-1945-ci illər müharibəsi veteranlarının yubileylərinin qeyd edilməsi istiqamətində növbəti tədbir mayın 20-də Babək rayonunun Yarımca kəndində keçirilib. Budəfəki yubilyar 95 yaşlı Rza Rzayev olub.

Görüşdə iştirak edən Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov, Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova yubilyarı 95 yaşı münasibətilə təbrik ediblər.

Bildirilib ki, 1941-1945-ci illər müharibəsində tarixi qələbənin qazanılmasında yaxından iştirak edən muxtar respublikamızın oğul və qızlarının qəhrəmanlığı dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir.

Qeyd olunub ki, ölkəmizin dinamik inkişafı əhalinin, o cümlədən sosial qayğıya ehtiyacı olan şəxslərin rahat yaşamalarına təminat verir. 1941-1945-ci illər müharibəsi iştirakçılarının sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə davamlı tədbirlər həyata keçirilir.

Vurğulanıb ki, müharibə əlili və müharibə iştirakçısına hər ay Prezident təqaüdü ödənilir, respublikanın sanatoriya və pansionatlarında müalicə olunmaları üçün onlar göndərişlərlə, ehtiyacı olanlar texniki bərpa vasitələri və protez ortopediya məmulatları ilə təmin olunurlar. Eyni zamanda müharibə veteranlarına və müharibə əlillərinə minik avtomobilləri təqdim edilir. Bütün bunlar müharibə veteranlarının sağlamlıqlarının qorunmasına, həyat səviyyələrinin yüksəlməsinə xidmət edir.

Rza Rzayev yüksək qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Tələbələr ebru sənətinə böyük maraq göstəriblər

***Su üzərində rəsm sənəti kimi böyük şöhrət qazanan ebru sənətinin tarixi çox qədimdir. Bəzi tarixi mənbələrə əsasən, Mərkəzi Asiyadakı Şimali Türküstanda yaranan ebru sənəti XV-XVI əsrlərdə Azərbaycanda daha da geniş yayılmağa başlayıb.***

Bu sözləri mayın 20-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində "Ebru sənəti" mövzusunda keçilən ustad dərsində sənətşünas Nizami Alıyev deyib.

Naxçıvan Dövlət Universitetinin "rəngkarlıq" və "təsviri incəsənət müəllimliyi" ixtisasları tələbələrinin iştirakı ilə keçilən ustad dərsində bildirilib ki, tamamilə təbii materiallar əsasında işlənən ebru sənətində rəsmlər qatılaşdırılmış su üzərində hazır formaya salınır. Torpaqdan hazırlanan boyalar mərmər üzərində 4-5 saatadək əzilir. Daha sonra onun içinə öküz ödü qatılır. Bu, boyanı həm incəldir, həm də onun suyun üzərində qalmasına imkan verir. Həmçinin boyalar su üzərində göyqurşağı kimi bir-birinə qarışmır və bu, boyanın həm də yapışqanlıq xüsusiyyətini təmin edir.



"Qatılaşdırılmış su "gəvən ağacı" adlanan təbii tikan otunun köməyi ilə alınır. Azərbaycanda gəvən otu daha çox Naxçıvan və İsmayıllıda bitir. Gəvən otunun gövdəsindəki nişastaya bənzər maddə suyu qatılaşdırır və nəticədə, boyalar suyun üzərində dağılmır", – deyən Nizami Alıyev qeyd edib ki, boyaları qatılaşdırılmış suyun üzərinə qızılgül kolunun ağacından hazırlanan fırça vasitəsilə səpirlər.

Qeyd olunub ki, ebru sənətinin bir neçə növü vardır. Bunlardan ən məşhuru sənətkarın adı ilə bağlı olan Battal üsuludur. Vaxtilə bu üsuldan, əsasən, xəttatlıqda yazıların fonunda, divarda asılan ulduların, peyğəmbərlərin sözlərinin yazılışında istifadə olunurdu.

Tələbələr daha sonra sənətşünas Nizami Alıyevin köməyi ilə ebru sənətinə aid nümunə üzərində praktik iş aparıblar.

**Xəbərlər şöbəsi**

*"Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır". Bu fikir Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında "Naxçıvan tarixi" çoxcildliyinin ikinci cildinin nəşr olunması ilə əlaqədar keçirilən tədbirdə səsləndirilib.*

## Çoxcildliyin ikinci cildi Naxçıvanın ikiəsrlik tarixinə işıq tutur



Kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova tədbiri giriş sözü ilə açaraq "Naxçıvan tarixi"nin ikinci cildi barədə ümumi məlumat verib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2012-ci il 6 avqust tarixli Sərəncamı ilə hazırlanmasına və nəşrinə başlanılan çoxcildliyin ikinci cildi XVIII əsrin ortalarından başlayaraq XX əsrin otuzuncu illərinin sonunadək olan ikiəsrlik bir dövrü əhatə edir. Kitabda yeni mənbələr, arxiv sənədləri, tədqiqat əsərləri, dövri mətbuat materialları əsasında Naxçıvan xanlığının yaranması, onun xarici dövlətlər və qonşu xanlıqlarla münasibəti, çar Rusiyasının Naxçıvan xanlığını ilhaq etməsi, Naxçıvanın sosial-iqtisadi, ictimai-siyasi həyatı və mədəniyyət tarixi işıqlandırılıb.

Vurğulanıb ki, kitabda Naxçıvanın çar Rusiyası tərəfindən ilhaqından sonra bölgədə yaranmış sosial-siyasi vəziyyət, kapitalist münasibətlərin meydana gəlməsi, XX əsrin əvvəllərində ermənilərin törətdikləri soyqırımlar, Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvanla əlaqələri, ərazinin qorunub saxlanılmasında Araz-Türk Cümhuriyyətinin rolu, əhalinin inadlı mübarizəsi nəticəsində Naxçıvanın muxtariyyət statusu əldə etməsi, Naxçıvan MSSR-in təşkili, XX əsrin 20-30-cu illərinin ictimai-siyasi hadisələri tədqiq və təhlil edilib.

"Naxçıvan xanlığı" mövzusunda çıxış edən kitabxananın Kütləvi iş şöbəsinin müdiri Yeganə Rüstəmova tədbir iştirakçılarına Naxçıvan xanlığı barədə məlumat verib.

AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev "Naxçıvan xanlığı I Kalbalı xanın dövründə" mövzusunda məruzə edib. Bildirilib ki, I Kalbalı xan Naxçıvan xanlığını müstəqil idarə etdiyi 1787-1797-ci illərdə onun inkişafına ciddi diqqət yetirib. O, mahir bir süvari qoşun sərkərdəsi olmaqla bərabər, həm də bacarıqlı diplomat idi. Bu illərdə Naxçıvan xanlığı inkişaf dövrünü yaşayıb. Həmin illərdə Naxçıvan xanlığının böyük şəhər və kəndlərində məktəblər açılıb, xanlıq varlı və firavan bir ölkəyə çevrilib. Xanlıqda əkinçiliyin inkişaf etdirilməsi və meyvə bağlarının salınması əhalidə böyük ruh yüksəkliyi yaradıb. Naxçıvan şəhərinin yaxınlığındakı Duzdağda duz mədənləri fəaliyyətə başlayıb.

Bildirilib ki, rus qafqazşünasları görkəmli sərkərdə və bacarıqlı dövlət başçısı olan I Kalbalı xan haqqında öz əsərlərində dönə-dönə bəhs edərək müəyyən qədər maraqlı, bəzən də ziddiyyətli məlumatlar veriblər. Ziddiyyətli məlumatlara baxmayaraq, oradakı faktlar I Kalbalı xanın xarakterini müəyyən qədər açır.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**✍ Muxtar MƏMMƏDOV**

## Kənd təsərrüfatı əkinləri üçün yararlı olan torpaqların ekoloji vəziyyəti və görülən işlər barədə seminar

***Bu il may ayının 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində əkinəyararlı torpaqlardan istifadənin və əhaliyə göstərilən xidmətlərin vəziyyəti ilə əlaqədar keçirilən müşavirədə qarşıya qoyulmuş tapşırıqların icrası istiqamətində müvafiq tədbirlər həyata keçirilir.***

May ayının 19-da Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin təşkilatçılığı ilə "Araz" Elm-İstehsalat Birliyinin təsərrüfat sahəsində seminar keçirilib. Seminarın keçirilməsində məqsəd qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsi üçün birgə fəaliyyətin təşkili və bu məqsədlə elmi-praktik müzakirələrin aparılmasıdır.

Seminarda Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisi Qadir Quliyev çıxış edərək yaşıllıqların, damcılı və çiləmə suvarma sisteminin, beton su kanallarının çəkilməsinin şoranlaşma və eroziya kimi ekoloji problemlərin aradan qaldırılması və torpaqların münbitliyinin qorunmasındakı əhəmiyyətindən danışıb.

Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisi Əsgər Həsənov torpaqların münbitliyinin artırılması sahəsində, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mütəxəssisi Səttar Nəsirov mütərəqqi suvarma metodlarının tətbiq edilməsi, su kanallarının, arxların təmizlənməsi və su itkisinin qarşısının alınması, şoranlaşmaya qarşı meliorativ və hidrotexniki tədbirlərin həyata keçirilməsi sahəsində görülən işlərdən danışıblar.

Sonra Kənd Təsərrüfatı Nazirliyinin "Araz" Elm-İstehsalat Birliyinin təsərrüfat sahələrində təcrübi-praktik iş aparılıb. Kənd təsərrüfatı əkinləri zamanı torpaqların münbitliyinin qorunması, torpaqlardan düzgün istifadə edilməsi, eroziya və şoranlaşmaya qarşı qabaqlayıcı ekoloji tədbirlərin görülməsi məqsədilə hazırlanmış tövsiyələr sahibkarlara paylanılıb.

**Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti**

## Culfa rayonunda "Nuh yurdu" intellektual oyunu

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin birgə təşkilatçılığı ilə Culfa rayonunda yeniyetmələr arasında "Nuh yurdu" intellektual oyununun rayon birinciliyi keçirilib.

Tədbiri Culfa Rayon Gənclər və İdman İdarəsinin rəisi Ümid Həsənli açıb. Sonra Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov, Culfa Rayon Təhsil Şöbəsinin əməkdaşı Ramazan Abuzərli çıxış edərək intellektual oyunun keçirilməsi məqsədindən danışıblar.

İntellektual oyunda 12 komanda iştirak edib. Üç mərhələ və final oyunundan ibarət olan intellekt nümayişində birinci yerə Əlincə kənd tam orta məktəbinin "Liderlər" komandası layiq görülüb. Digər iki pillədə isə Qazançı kənd tam orta məktəbinin "Qazançı" komandası və Culfa şəhər 3 nömrəli tam orta məktəbin "Əlincə" komandası qərarlaşıblar.

Yer tutmuş komandalar təşkilatçılar tərəfindən diplom, fəxri fərman, kubok və hədiyyələrlə mükafatlandırılıblar.

## Qızlar arasında yüngül atletika yarışı

Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının Şahbuz rayon bölməsinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin qızları arasında yüngül atletika üzrə rayon birinciliyi keçirilib.

Tədbirin açılış mərasimində çıxış edən rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Muradov, Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Kamran Quliyev və Yüngül Atletika Federasiyasının rayon bölməsinin nümayəndəsi İdris Qəhrəmanov iştirakçılara uğurlar arzulayıblar.

Reqlamentə əsasən, şagirdlər 100, 200, 400 və 800 metr məsafələrə qaçış, eyni zamanda uzununa tullanma üzrə qüvvələrini sınayıblar.

45 nəfərin şəxsi birincilik üzrə mübarizəsində Səmangül İsmayılova (100 m), Nərmin Rüstəmli (200 m), Zəminə Hüseynova (400 m) və Mədinə İbrahimova (800 m) bütün rəqiblərini qabaqlayıblar. Uzununa tullanmada isə Fidan Hüseynli birinci yerə layiq görülüb.

Sonda qaliblərə təşkilatçıların diplom və hədiyyələri təqdim edilib.

## Çempionatda dördüncü turun oyunları keçirilib

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi basketbol üzrə muxtar respublika çempionatında 4-cü turun oyunları keçirilib.*

Çempionatın favoritləri bu turu da itkisiz başa vurublar. Turnir cədvəlinin lideri "Naxçıvan" komandası "Naxçıvan" Universiteti basketbolçularını sınağa çəkib. Oyun ərzində üstünlüyü əldən verməyən lider meydanı böyükhesablı qələbə ilə tərk edib – 110:31.

Rəqibini daban-dabana izləyən "Ordubad" komandası da qələbəni bayram edib. Onlar budəfəki səfərdə "Lokomotiv" komandasını məğlub ediblər – 28:48. Ordubadlı basketbolçular kimi, culfalı idmançılar da bu turu səfərdə qələbə ilə başa vurublar. Sədərəkdə eyniadlı komandanın qonağı olan "Culfa" komandası 73:40 hesabı ilə qələbə qazanaraq turnir cədvəlinin üçüncü pilləsinə yüksəlib. Dördüncü turun son oyununda isə meydana Babək və Şərur basketbolçuları çıxıblar. Baxımlı oyun babəklilərin 56:30 hesablı qələbəsi ilə yekunlaşıb.

| S/№ | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1 | Naxçıvan | 4 | 4 | 0 | 320-141 | 8 |
| 2 | Ordubad | 4 | 4 | 0 | 221-121 | 8 |
| 3 | Culfa | 4 | 3 | 1 | 230-161 | 7 |
| 4 | Babək | 4 | 2 | 2 | 175-169 | 6 |
| 5 | Lokomotiv | 4 | 1 | 3 | 148-198 | 5 |
| 6 | Şərur | 4 | 1 | 3 | 106-189 | 5 |
| 7 | "Naxçıvan" Universiteti | 4 | 1 | 3 | 167-278 | 5 |
| 8 | Sədərək | 4 | 0 | 4 | 151-261 | 4 |

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Həsənli Orman Bəhrəm oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 403